**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏHƏMMƏD AĞA ŞAHTAXTLININ MAARİFCİLİK FƏALİYYƏTİ VƏ PEDAQOJİ İDEYALARI

İxtisas: 5804.01- ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

**İddiaçı: Fəridə Tofiq qızı Xudiyeva (Qasımova)**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika üzrə fəlsəfə doktoru, professor
**İramin Namaz oğlu İsayev**

Rəsmi opponentlər: pedaqogika elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vidadi Paşa oğlu Bəşirov**

pedaqogika üzrə fəlsəfə doktoru
**Ramiz Cəlal oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

tarix üzrə elmlər doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi:

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri:

pedaqogika elmlər doktoru, professor,
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan pedaqoji fikrinin inkişaf dinamikasının, baza prinsiplərinin, ayrı-ayrı mərhələlərdəki struktur mənzərəsinin işlənməsi bir zərurət kimi müasir pedaqogika elmin qarşısında durur. Ənənəyə, varislik prinsipinə əsaslanan məktəb, elm və təhsil bütün mərhələlərdə etnosun milli yaddaş və dəyər qanunlarına, şəxsiyyətin bütövlüyünə hesablanmışdır. Məhz bu səbəbdən də Azərbaycan Respublikası prezidenti İlham Əliyev vurğulayır ki, *"Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər"*[1]. Məsələyə bu kontekstdən yanaşdıqda ayrı-ayrı epoxaların ortaya qoyduğu təsəvvür sistemi yeni baxışlarla reallaşdırılmış və ciddi əlavələrin olunmasını zərurətə çevirmişdir. XIX əsrin ikinci yarısının yeniləşmələri də reallığın hadisəsi olaraq müxtəlif istiqamətli təhlilləri zərurətə çevirir. Burada gərəkli olan məsələlərdən və açılmalı istiqamətlərdən birisi ayrı-ayrı maarifçi ziyalıların gördüyü böyük işlər, apardığı mücadilədir. Bunlar böyük bir ziyalı nəslidir və mövcud prosesdə hər birinin də öz yeri vardır. Azərbaycanda pedaqoji fikrin inkişafında mühüm xidmətləri olan qabaqcıl maarifçi ziyalılardan biri də Məhəmmədağa Şahtaxtlıdır. Onun zəngin fəaliyyəti, dövrün ictimai, mədəni prosesləri müstəvisində məsələlərə daha ciddi və konstruktiv yanaşmaları, müxtəlif istiqamətli təhlilləri aktuallaşdırır. Çünki bu görkəmli şəxsiyyətin elmi, pedaqoji sahədə gördükləri özlüyündə dövrün və mühitin zərurətindən doğmaqla milli mənsubluğun dərki və qorunmasına hesablanmışdır.

---

[1] Əliyev İ. H. İnkişaf-məqsədimizdir. - Bakı: Azərnəşr, 2013, s. 31-32

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanın ictimai, siyası, mədəni həyatında mühüm mərhələdir. Xalq məfkurəsinin dinamik hərəkətə keçdiyi, intibahın və özünüdərkin funksional xarakter aldığı dövrdür. Məlum olduğu kimi, XIX əsrin II yarısında maarifçi ziyalıların Azərbaycanı gerilikdən çıxarıb, Avropa inkişaf yoluna gətirmək məqsədi ilə yeni tipli məktəblər yaratmaq sahəsindəki fəaliyyəti mövcud oyanışın başlanğıcıdır. A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, M.Mahmudbəyov, S.S.Axundov, A.Səhhət. R.Əfəndiyev, Ü.Hacıbəyov, A.Şaiq, S.M.Qənizadə, M.Ə.Sabir, M.Şahtaxtlı kimi maarifpərvər ziyalı-müəllimlərin məqsəd və məramları, xalqı maarifləndirmək istiqamətində atdığı addımlar bütün zamanlar üçün fundamental hadisədir. Azərbaycan dövlətinin memarı Heydər Əliyevin dediyi kimi: *"Xalqımızın mədəniyyətini, dilini, milli adətlərini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək bizim hər birimizin üzərinə düşən çox məsuliyyətli bir tarixi yükdür"*[2]. Onların fəaliyyət sistemi, mədəniyyət stixiyası daha çox yazdıqları əsərlərdə, cəmiyyəti maarifləndirmək missiyasında tapınırdı. Ətraf çevrədə olan qüsurların tənqidi, köhnə tipli məktəblərin təhlili və zamanın doğurduğu zərurətin qabardılması, yeni dünya ilə ayaqlaşacaq şəxsiyyət modelinin müəyyənləşməsi və s. bütünlükdə böyük bir ziyalı ordusunun fəaliyyət sistemindən aparıcı xətt kimi keçməkdə idi. Ərəb əlifbasının islahı, tədrisin ana dilində keçirilməsi, yeni tipli məktəblərin yaranması, dərslik ehtiyacı fundamental məsələ kimi mühiti narahat edirdi. *"Hər yerdə qəza məktəbləri açıldığı zaman hökumət başqa fənlərlə bərabər bu məktəblərdə Azərbaycan dilinin öyrənilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığından böyük çətinliklər*

[2] Heydər Əliyev: Müdrik fikirlər. -Bakı: Çaşıoğlu, 2000, s. 302

*meydana çıxdı"*[3]. Qabaqcıl maarifçi ziyalıların gərgin fəaliyyəti nəticəsi olaraq ilk Azərbaycan dərslikləri yaranmağa başladı.

**Problemin işlənmə dərəcəsi:** M.Şahtaxtlının zəngin yaradıcılığı müxtəlif istiqamətli tədqiqatların probleminə çevrilmişdir. F.Ağazadə, A.Abdullayev, Ş.Novruzov, Z.Göyüşov, Ə.Tağıyev, İ.Mollayev, A.Zeynalova, A.Feyzullayev, H.Əhmədov, İ.Həbibbəyli, Ə.Əliyev, A.Bayramoğlu, B.Əhmədov və başqaları görkəmli ictimai xadim, publisist, maarifçi M.Şahtaxtlının yaradıcılığını müxtəlif istiqamətlərdə təhlil etmiş, Azərbaycanın ictimai, siyasi, mədəni fikir tarixində yerini müəyyənləşdirməyə çalışmışlar.

Moskvada nəşr edilən "Антология педагогической мысли Азербайджанской ССР" (1989) fundamental kitabında prof. Hüseyn Əhmədov Məhəmməd ağa Şahtaxtlı haqqında qısa məlumat verdikdən sonra onun «Школьная жизнь у мусульман», «Азбука» вя «Культурное значение мусульманской женской школы» əsərlərinin mətnlərini dərc etdirmişdir.

**Tədqiqatın obyektini** XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikrin inkişafı təşkil edir. **Tədqiqatın predmetini** M.Şahtaxtlının maarifçilik fəaliyyəti və pedaqoji ideyaları təşkil edir.

**Tədqiqatın məqsədi** M.Şahtaxtlının həyatının və maarifçilik fəaliyyətinin ən mühüm məqamlarını araşdırmaqdan, onun böyüyən nəslin təhsil-tərbiyəsi ilə bağlı fikirlərini ümumiləşdirməkdən və müasir məktəb təcrübəsində istifadəsini əsaslandırmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri.** Məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- dövrün ictimai-siyasi, elmi-pedaqoji və mədəni mənzərəsini yaratmaq;

---

[3]Axundov M.F. Əsərləri. 3 cilddə, III c., Bakı: Azərbaycan Elmlər Akademiyası, 1962, s. 70

- M.Şahtaxtlının Azərbaycanın mədəni, pedaqoji həyatında fəaliyyətlərini və yerini aydınlaşdırmaq;
- ana dili təlimi uğrunda mübarizəsinin məqsədini və baza prinsiplərini aşkarlamaq;
- əlifba məsələsinin qaldırılmasının və həlli uğrunda sistemli fəaliyyətinin gərəkliyini müəyyənləşdirmək;
- maariflənmənin millətin özünü dərkində funksional rolunu ortaya qoymaq;
- M.Şahtaxtlının elmi-pedaqoji fikirləri və görüşləri ilə əlaqədar bütöv bir təsəvvür yaratmaq.

**Tədqiqat metodları:** nəzəri, tarixi və müqayisəli təhlil, problemlə bağlı elmi-pedaqoji, ədəbi-bədii, fəlsəfi əsərlərin, arxiv sənədlərinin öyrənilməsi və sistemləşdirilməsi.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

-XIX əsrin sonu, XX əsrin əvəvəllərində Azərbaycanda elmi-pedaqoji mühitin formalaşdırılmasında Məhəmməd ağa Şahtaxtlının mühüm rolu olmuşdur.

-XX əsrin əvvəllərində əlifbanın dəyişdirilimləsi uğrunda mübarizənin öncüllərindən biri M.Şahtaxtlı olmuşdur.

-Yeni tipli məktəblərin yaradılması M.Şahtaxtlının pedaqoji fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

XX əsrin əvvəllərində təhsilin məzmunu, prinsipləri, metodları, təşkili formaları ilə bağlı nəziyyənin formalaşdırılmasına M.Şahtaxtlının nəzəri irsi güclü təsir göstərmişdir.

- M.Şahtaxtlının nəzəri irsi XX əsrin əvvəllərində tərbiyə nəzəriyyəsinin (tərbiyənin məqsədi, məzmunu, prinsipləri, metodları, təşkili formaları) və böyüyən nəslin əqli, əxlaqi, estetik, fiziki, dini tərbiyəsində mühüm rol oynamışdır.

-XX əsrin əvvəllərində Azərbaycanda təhsil və pedaqoji fikrin yeni istiqamətdə inkişafına "Şərqi-Rus" qəzeti güclü təsir göstərmişdir.

**Tədqiqatın elmi yeniliyi**.

Dissertasiyada:

- ensiklopedik zəka sahibi M.Şahtaxtlının maarifçilik fəaliyyəti sistemli şəkildə araşdırılmışdır;
- əlifbanın dəyişdirilməsi uğrunda mübarizəsinin məqsəd və məramı müəyyənləşdirilmişdir;
- köhnə təhsil sisteminin yenilənməsi, dünyəvi təhsilə keçmək problemini qaldırmasının mahiyyəti aşkarlanmışdır;
- maarifpərvər ziyalının təhsil konsepsiyasının dünyəviliyə hesablandığı açıqlanmışdır;
- XIX əsrin sonu, XX əsrin əvvəllərindəki mövcud təhsil sisteminin mahiyyət mexanizmləri haqqında bütöv təsəvvür yaradılmışdır.
- XIX əsrin sonu, XX əsrin əvvəllərinin pedaqoji fikir mənzərəsi müstəvisində M.Şahtaxtlının yeri və rolu aydınlaşdırılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** Aparılan tədqiqat Azərbaycan pedaqoji fikir tarixini, eləcə də onun bir hissəsi olan XIX əsrin sonu, XX əsrin əvvəllərindəki inkişaf istiqamətini öyrənmək üçün mühüm elmi əhəmiyyət kəsb edir. M.Şahtaxtlının ensiklopedik fəaliyyətini, zəngin yaradıcılığında maarifçilik görüşlərini, təhsilə verdiyi önəmli yeri aydınlaşdıran əsaslı mənbə kimi əhəmiyyətlidir. Pedaqoji fikir tarixini öyrənənlər, M.Şahtaxtlı ilə bağlı araşdırma aparanlar tədqiqatdan lazımı qədər yararlana bilərlər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun tədrisində, "Azərbaycan pedaqoji fikir antologiyası"nın və "Pedaqoji təhsil" ensiklopediyasının hazırlanmasında istifadə etmək olar.

**Aprobasiya və tətbiqi.** Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas nəticələri 10 elmi məqalə və məruzə tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, səkkiz paraqrafı özündə birləşdirən üç fəsil, nəticə, və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Giriş 10, I fəsil 48, II fəsil 63, III fəsil 21, nəticə 5, istifadə edilmiş ədəbiyyat siyahısı 13 səhifədən, ümumilikdə dissertasiya işi 272885 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, məqsəd və vəzifəsi, işlənmə dərəcəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti aydınlaşdırırlır, müdafiəyə çıxarılan müddəalar verilir.

**"Məhəmməd ağa Şahtaxtlının maarifçilik fəaliyyəti"** adlanan birinci fəsildə problem üç paraqrafda ümumiləşdirilir. İlk olaraq *"M.Şahtaxtlının dövrü və elmi-pedaqoji, mədəni həyatın səciyyəvi xüsusiyyətləri"* probleminə diqqət yetirilir. XIX əsr Azərbaycanın ictimai, siyasi, mədəni fikir tarixində mühüm mərhələdir. Maarifçilik bu dövrdə mədəni hərəkat olaraq cəmiyyətin problemlərinin həllinə kökləndi. "Millət ayılarsa, haqqını bilər" fikri bu hərəkatın mahiyyətini ifadə edirdi. "Əkinçi"dən başlayan ənənə ("Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Şərqi–Rus", "Təkamül", "Azərbaycan", "Bəhlul", "Zənbur", "Arı", "Kəlniyyat", "Leylək", "Tuti", "Məzəli", "Babayi-Əmir", "Məşəl", "Dəbistan", "Rəhbər", "Məktəb" və s.) mədəni mühitin formalaşdırılmasına xidmət edirdi. Paraqrafda XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda elmi-pedaqoji və mədəni həyatın səciyyəvi xüsusiyyətləri maarifçilərin nəzəri baxış və konsepsiyaları əsasında araşdırılır.

*"M.Şahtaxtlının həyatı və pedaqoji fəaliyyəti"* adlanan ikinci paraqrafda görkəmli ədibin həyatı və pedaqoji fəaliyyətinin ən mühüm məqamları tədqiq və təhlil olunur. Qeyd olunur ki, sağlığında ikən "millətin canlı heykəli" kimi məşhurlaşan Məhəmməd ağa Sultan oğlu Şahtaxtlı 1846-cı ildə Şərur-Dərələyəz qəzasının (indiki Naxçıvan Muxtar Respublikası Şərur rayonu) Şahtaxtlı kəndində

anadan olmuş, 1931-ci ildə Bakıda vəfat etmişdir**.** Məhəmməd ağa ilk təhsilini Naxçıvanda məşhur ruhani Hacı Mirzə Məhəmmədəlidən almışdır. Sonra Naxçıvan şəhər məktəbində və Tiflisdə klassik kişi gimnaziyasında oxumuşdur. Gimnaziyanı uğurla bitirən Məhəmməd ağa Peterburqa, oradan da Almaniyaya getmiş, Leypsiq universitetinin fəlsəfə, tarix, hüquq fakültəsində (1871-1873) oxumuşdur. 1873-1877-ci illərdə Parisdə yaşamış, burada ali məktəblərdə dərs demişdir. Sorbon universitetində prof.Pavel Passinin rəhbərliyi ilə fransız dilinin fonetikasına dair apardığı tədqiqatlar onu ərəb əlifbasında islahatların gərəkliyi qənaətinə gətirmişdir. O, 1898-1901-ci illərdə Parisdə göstərdiyi elmi və pedaqoji fəaliyyətə görə "Beynəlxalq Asiya cəmiyyəti"nə və "Beynəlxalq fonetika cəmiyyətinə" üzv seçilmişdir.

1902-ci ildə vətənə qayıdan M.Şahtaxtlı Tiflisdə qəzet nəşr etmək məqsədi ilə mətbəə açmaq üçün çalışır. O, çətinliklə buna nail olur və 1903-cü ilin mart ayından 1905-ci ilin yanvarınadək "Şərqi-Rus" adlı qəzet nəşr edir. M.Şahtaxtlı qəzeti tərəqqinin üç amillərindən biri hesab edərək yazırdı*:"Avropa əhli deyirlər: məxluqatın tərəqqisinə bais olan şeylər üç qismdir: əvvələn məktəb, ikincisi qəzet, üçüncüsü teatrdır"*. Görkəmli ədib məhz həyatı boyu millətin tərəqqisi yolunda sistemli və məqsədli mübarizə aparmış, fəaliyyət və düşüncəsini də bura kökləmişdir. Həyatının Naxçıvan, Peterburq, Tiflis, Fransa, Almaniya dövrü bunu bütün təfərrüatyları ilə göstərir. M.Şahtaxtlı 1906-cı ildən etibarən yenidən pedaqoji fəaliyyətə başlamış, eyni zamanda ömrünün sonunadək əlifba islahatı sahəsində Azərbaycanda gedən hərəkatın fəal iştirakçısı olmuşdur. "Şərqi-Rus" qəzeti fəaliyyətini dayandırdıqdan sonra 1907-ci ilə kimi Tiflisdə müəllimlik etmişdir. M.Şahtaxtlı 1907-ci ilin fevral ayında İrəvan quberniyasının Naxçıvan şəhərində II Dövlət dumasına üzv seçildiyi üçün Peterburqa getməli olmuşdur.

M.Şahtaxtlı 1920-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyətini professor kimi davam etdirmiş, yeni

Əlifba komitəsində əlifba islahatı komitəsinin fəal üzvlərindən olmuş, eyni zamanda Azərbaycan dilçiliyinin müxtəlif sahələrində mühazirələr oxumuşdur.

*"M.Şahtaxtlının elmi-pedaqoji dünyagörüşünə təsir edən amillər"* adlanan üçüncü paraqrafda görkəmli ədibin fəaliyyətinin, elmi, pedaqoji, mədəni sahədəki fəaliyyəti aydınlaşdırılır. "Millətin canlı heykəli" kimi xarakterizə olunan M.Şahtaxtlı həyatının böyük bir hissəsini xaricdə keçirməsinə baxmayaraq, bütünlükdə düşüncə sisteminin bazasında Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı dayanmışdır. Milli yaddaş, əxlaq və onun genetik funksional xarakteri fəaliyyətinin bütün mərhələlərində bazis funksiyasında çıxış etmişdir. M.Şahtaxtlının elmi-pedaqoji dünyagörüşünün spektrlərinin müəyyənliyi bütünlükdə həyat kredosunu aydınlaşdırır. O, əqli və hissi düşüncənin bütün imkanlarından istifadə etməklə maarifçilik təsəvvürlərini reallaşdırmağa çalışmışdır. Sələfi M.F.Axundovun qaldırdıqları problemlər bu və ya digər şəkildə M.Şahtaxtlı tərəfindən incəliklərinə qədər dərk olunmuşdu.

O, ilk təhsil illərində ərəb, fars, rus, latın, yunan dillərini öyrənməklə Şərq ədəbiyyatı və fəlsəfəsinə açar əldə etmişdir. Tiflisdə klassik gimnaziyada təhsili, zəngin Tiflis mühiti onun sonrakı fəaliyyətinə, gələcəyini hansı istiqamətdə müəyyənləşdirməsinə imkan yaratmışdır. Qaynar mədəniyyət ocaqları (Tiflis, Peterburq, Almaniyaya), XIX əsrin güclü ziyalı mühitləri, fikir cərəyanları onun şəxsiyyətinin bütövləşməsinə və sistemli fəaliyyətinə şərait yaratmışdır.

M.Şahtaxtlı fransız dilli alimlərin köməyi ilə fransız dilini dərindən öyrənir, bu dilin fonetikasına aid elmi əsərlər yazaraq, Avropa mətbuatında nəşr etdirir ("Biz nə haqda düşünürük", "Əlifba və mədəniyyət", "Şərq böhranı" və s.), Fransa kollecində və Ali təcrübi təhsil məktəbində mühazirələr oxuyur, Şərq dillərini tədris edir.

Avropada olan tərəqqini, keçirilən islahatları, yeniləşmə tendensiyasını mənimsəyən ədib öz vətənində də bu proseslərin baş verməsi

üçün bütün varlığı ilə mücadilədə idi. Bütün bunlar M.Şahtaxtlının elmi-pedaqoji dünyagörüşünün mahiyyətini aydınlaşdıran konseptual xarakterli tərəflərdir.

İkinci fəsil ***"Məhəmməd ağa Şahtaxtlının didaktik görüşləri"*** adlanır. Problem üç paraqrafda həllini tapır. "*M.Şahtaxtlı təhsilin məzmunu, yeni əlifba və təlimin ana dilində aparılması uğrunda mübarizədə"* adlanan paraqrafda görkəmli maarifçinin fəaliyyətinin mühüm bir istiqaməti- təhsilin məzmunu, yeni əlifba və təlimin ana dilində aparılması təhlilə cəlb olunur. M.Şahtaxtlının bu sahədəki xidmətləri dövrün maarifçilərinin problemlə bağlı ideya və baxışları kontekstində, müqayisəli şəkildə araşdırılır. Əsaslandırılır ki, M.Şahtaxtlı əliffba layihələrini və təklif etdiyi islahatın elmi prinsiplərini iki kitabda çap etdirmişdir:1) "У совершенственная мусульманская азбука"dır (1879); 2) "Пояснительная записка о фонетической восточной азбуке" (1902).

M.Şahtaxtlı Bakıda çağırılmış Azərbaycan Müəllimlərinin II qurultayının (1907-ci il 25 avqust- 4 sentyabr) iştirakçısı olmuşdur. Qurultayın gündəliyində əsas məsələlərdən biri ərəb əlifbasının islahatı idi. Tədris üsulu və təlim məsələsində ciddi fikir ayrılığı olmuşdu. M.Şahtaxtlı qurultayda çıxış etmişdir.

M.Şahtaxtlının layihəsi ilk dəfə 1919-cu ilin 17 iyununda müzakirə olunmuşdur. 5 iyul tarixli iclasda rus dilində təqdim etdiyi çıxışı "Латинская азбука в мусульманском мире" adlanır. Bu layihəni komissiya üzvlərinin nəzər-diqqətinə rus və Azərbaycan dillərində çatdırır. Məhəmməd ağa rus dilində yazdığı məqaləsində göstərirdi ki, bütün müsəlman xalqlarının, o cümlədən bizim işlətdiyimiz ərəb əlifbası yalnız samit hərflərdən ibarətdir.

Əlifba komissiyası 5 iyul 1919-cu il tarixli iclasında M.Şahtaxtlının Azərbaycan türkcəsi üçün 35 hərfdən ibarət əlifbası və əlavə ərəb, fars və ləzgi üçün 46 hərfdən ibarət əlifbasını, 23 iyul 1919-cu il tarixli iclası Şahtaxtlının tərtib etdiyi 45 hərfdən ibarət latın

əlifbasını müzakirə etmişdi. Bu əlifba ərəb, fars və türk dillərinə müvafiq olaraq tərtib edilmişdir.

Əlifba islahatı, tərtibi və ana dili dərsliklərinin nəşri sahəsində M.Şahtaxtlı bir sıra uğurlar qazana bilmişdi. Onun iştirakı və rəhbərliyi altında yeni üsullu "Ana dili" dərslikləri və başqa köməkçi dərs vəsaitləri nəşr edilərək şagirdlərin istifadəsinə verilmişdi.

Fəslin *"M.Şahtaxtlı təlimin prinsip və üsulları haqqında"* adlı yarımfəsildə M.Şahtaxtlının təlimin prinsip və metodları ilə bağlı ideyaları təhlil olunur. Ana dilinin ibtidai təlimin əsasında durduğunu söyləyən M.Şahtaxtlı göstərirdi ki, insan üçün könlündəkini anlatmaq üçün öz ana dilindən savayı vasitə yoxdur. Etnosun mədəniyyətinin, düşüncəsinin, bütünlükdə fəaliyyət mexanizminin genetikasında dil dayanır. Ona görə də təlimin prinsip və üsullarında dil bir faktor kimi funksional xarakterliliyi ilə müstəsnalıq təşkil edir. Görkəmli maarifçi vurğulayırdı ki, dərsliyin məzmununu, mətnin məna və ideyasını ana dilində daha tez və dərindən anlamaq olur. Əgər təlim xarici dildə olanda onda işlərin bir başqa istiqamətdə qurulmasına, uzunmüddətli mənimsəmələrə, dili öyrətnməyə zərurət yaranır. Müəllim əvvəlcə şagirdi bu dildə öz fikirlərini anlayıb izah etməyə hazırlamalı, sonra dərslikdə olan zehni materialla tanış etməlidir.

M.Şahtaxtlının təlimlə bağlı düşüncələrində nəyi və necə öyrətmək ən önəmli məsələ kimi fundamental xarakter daşıyırdı. Onun apardığı mücadilənin mahiyyətində yeni nəsli tərbiyə və təlim baxımından yüksək, zamanın və mühitin tələb etdiyi prinsip və üsullarla nizamlamaq dururdu. Təlim və tərbiyənin bütün sisteminə kompleks yanaşmaq yolunu tutan maarifçi cəmiyyətin problemlərinin başlıca səbəblərini də işin düzgün qurulmamasında, köhnə ənənədən uzaqlaşa bilməməkdə, mühafizəkarlığın baş alıb getməsində görürdü.

M.Şahtaxtlının didiktik görüşləri 1896-cı ildə yazdığı "Культурное значение мусульманской, женской школы" adlı məqaləsində daha çox əks olunmuşdur. Bu məqalə Bakıda Hacı Zeynalabdin

Tağıyevin köməyi ilə açılacaq Qız məktəbinin layihəsi haqqında mülahizələridir.

M.Şahtaxtlı xalqın başa düşəcəyi sadə dildə yazmağı tövsiyə edərək yazırdı: *"Müsəlman aləmində dünyagörüşünün təkamülünə nail olmaq üçün müsəlman xalq kütlələrinin dərk etməli olduqları həqiqət o qədər sadə və aydındır ki, bu həqiqəti müsəlmanların şüuruna yeritmək üçün xalqın sağlam düşüncəsinə alimlərin heç bir elmi əsəri ilə deyil, qısa və anlaşıqlı ibarələrlə müraciət etmək kifayətdir"*[4] və əlavə edirdi ki, *"ey müsəlman müəllimləri! Bir az əvvəl Avropaya gedib onların məktəblərinin vəziyyəti ilə tanış oldum. Onların təlim üsulları ilə tanış olun, məktəblilərinin işlərini öyrənin, açmış olduqları "Seminariya" deyilən darülmüəlliminə oxumağa gediniz"*[5]. Bütün bunlar M.Şahtaxtlının maairifçilik fəaliyyətinin əhatəliliyini, məktəbə verdiyi önəmi, təlimin üsul və prinsiplərinin yeniliyə, milli düşüncəyə hesablanmasını aydınlaşdırır.

Fəslin *"M.Şahtaxtlının pedaqoji görüşlərində qadın azadlığı və təhsili problemi"* adlanan üçüncü paraqrafında böyük maarifçinin bu istiqamətdə söylədiyi fikir və mülahizələr təhlil olunur. Almaniyada, Fransada, Rusiyada, Tiflisdə, Bakıda yaşadığı bütün dövrlərdə sosial mühitin problemləri ilə ciddi maraqlanmış və onun həlli istiqamətində konseptual təkliflər irəli sürmüşdü. "Şərqi-Rus" qəzetindəki fəaliyyəti də bu mənada xüsusi əhəmiyyət daşıyır. Ümumiyyətlə, qadın azadlığı problemi bütünlükdə XIX yüzillik ziyalı mühitinin düşüncəsini məşğul etmişdir. Orta əsrlərin sxolastik təsəvvürlər sistemi qadını həmişə bir qədər arxa planda saxlamağa üstünlük verirdi. XIX yüzillikdə də eyni tendensiya müşahidə olunmuş, mühafizəkar, geri qalmış davranış və dəyər qanunları onların cəmiyyətdə mövqeyini ortaya qoymağa imkan verməmişdir.

---

[4]"Şərqi-Rus" qəz., 1904, № 20

[5]"Şərqi-Rus" qəz., 1903, № 11

M.Şahtaxtlının maarifçilik fəaliyyətində qadın azadlığı məsələsi geniş yer tutur. O bilirdi ki, *"islam qövmünün xilası və təalisi" (ucalması) iki mühüm məsələnin həllindən asılıdır: qadın məsələsi və əlifba məsələsi"*. M.Şahtaxtlı çıxış yolunu özünün ayrı-ayrı məqalələrində göstərməyə çalışırdı və ən başlıca səbəbini isə maariflənmənin aşağı səviyyədə olmasında görürdü.

Əsrin əvvəllərində "Şərqi-Rus" qəzetində işıqlandırılan qadın azadlığı məsələsi sonrakı mətbuat orqanlarında daha ətraflı və geniş şərh olunmuşdur. M.Şahtaxtlı Hacı Zeynalabdin Tağıyevin açdığı qız məktəbinin haqqında yazdığı elmi məqalədə bu məktəbin məqsəd və vəzifələrindən bəhs edərək göstərirdi: *"Hacı Zeynalabdin Tağıyev və qardaşları" ticarət evinin başçısı, Bakı neft sənayeçisi Hacı Zeynalabdin Tağıyev əgər müsəlmanların xalq təhsilinin ehtiyaclarına 185 min manat xərclədiyindən başqa heç nə etməsəydi də, bütün xalq maarifi dostlarının təşəkkürünü qazanardı"*[6]. Cəhalətin hökm sürdüyü bir zamanda qadın azadlığından, hüquqlarından, təhsil almasının zəruriliyindən danışmaq cəsarət və qətiyyət tələb edirdi. M.Şahtaxtlı mütərəqqi fikirlərini cəmiyyətə özünəməxsus tərzdə çatdırırdı. Ona görə də F.Ağazadə ona "bu dövrün ən böyük heykəli Məhəmməd ağa Şahtaxtlı cənablarıdır" -deyirdi.

Dissertasiyanın ***"Məhəmməd ağa Şahtaxtlının yaradıcılığında tərbiyə məsələləri"*** adlanan üçüncü fəslində problem iki paraqrafda ümumiləşdirilir. İlk paraqraf *"M.Şahtaxtlının ideya-mənəvi tərbiyəyə dair fikirləri*" adlanır. Burada əsaslandırılır ki, milli yaddaş, milli özünüdərk, əxlaq və davranış normalarının qorunub saxlanılmasında tərbiyə mühüm rol oynayır. Milli tərbiyə milli təəssübkeşlik və özünüdərk missiyasının reallaşmasına xidmət edir. Burada əsas olan

---

[6]Шахтахтинский М. Культурное значение мусульманской женской школы. – Антология педагогической мысли Азербайджанской ССР. Москва, "Pedaqoqika", 1989, str. 310

vacib məsələ millətin min illər boyu yaratdığı dəyərə sahib çıxması və onu sonrakı nəsillərə ötürməsidir. M.Şahtaxtlı da yaradıcılığında tərbiyənin insan şəxsiyyətinin formalaşdırılmasındakı rolunu yüksək dəyərləndirirdi. O yazırdı ki, *"zühura gələn hər bir məxluqat və mövcudun mütləq bir səbəb və hikməti ilahiyə müvafiq bir surətdə xəlq buyurduğu sirri bilmir. Həqq-taala təbiətin təsir və iqtizasını bir səbəbi-xilqət olaraq bəxş buyurduğu fəhm edilir. Buna binaən heç bir şeyin bilasəbəb zühuru gözlənilmir"*. *Mənəvi tərbiyə özlüyündə milli varlığın müəyyənlik sistemidir, onun reallaşması isə mühit, şəxsiyyət və cəmiyyət səviyyəsində həyata keçirilən kompleks yanaşmalardan asılıdır. O səbəbdən də görkəmli maarifçi "xülasə, indiyə qədər min dürlü təcrübələr ilə isbat edilmiş bir həqiqətdir ki, hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar"*[7] deyirdi.

M.Şahtaxtlının tərtib və nəşr etdirdiyi dərsliklərdən bütöv bir nəsil təlim və tərbiyə almışdır. Ana dilini öyrətmək, ana dilində qəzet çıxarmaq, ana dilini daha asan əlifba ilə mənimsəmək problemləri onu ömrünün axırınadək düşündürmüşdür. "Kaspi", "Şərqi-Rus", "Kavkaz" və başqa müxtəlif qəzetlərdə təlim-tərbiyə, təhsil və məktəb məsələlərinin bütün sahələrinə aid onlarla məqalələr dərc etmişdir.

"Ana dili" dərsliyinin ikinci cildində şagirdlərin bilik və yaş səviyyəsi nəzərə alınmaqla bir qədər iri həcmli, dolğun məzmunlu təmsillər, hekayələr verilmişdir."Köçərilərin həyat tərzi", "İnsanın bədəni", "Böyük Pyotr", "Adamlar havada necə uçurlar", "Hər parıldayan qızıl deyil", "Xoşbəxtliyi pulla qazanmaq olmaz", "Sədaqətli dövlət", "Tək qalmağa adət etmək" və s. buna nümunədir.

"Ədəbiyyatda məslək", "Rusiyada farsi qəzeti", "Kömək eləyin", "Dərdimiz və dərmanımız", "Rəqqi-şər və fəsad" və s. məqalələrində bu və ya digər şəkildə mənəvi tərbiyənin sosial mühitdə nə qədər

---

[7]Şahtaxtlı M. Dərdimiz, dərmanımız. "Şərqi-Rus", 1903, 13 aprel, № 6

önəmli rol oynaması, bu prosesin həyata keçirilməsi məsələləri qabardılır. Bütün bunlar M.Şahtaxtlının mənəvi zənginliyini, arxetiplərə möhkəm bağlılığını, müasir dünya düzənində milli yaddaş və davranış formalarının qorunuşuna önəm verdiyini aşkarlayır. Fəslin ikinci paraqrafı *"M.Şahtaxtlı əmək, fiziki və estetik tərbiyə haqqında"* adlanır. Burada əsaslandırılır ki, M.Şahtaxtlının maarifçilik görüşlərində böyüyən nəslin əmək, fiziki və estetik tərbiyəsi mühüm yer tutur.

Məlum olduğu kimi, fiziki və estetik tərbiyə ümumi tərbiyənin tərkib hissəsi olub bütün funksional xüsusiyyəti, xarakteri etibarilə ona bağlanır. Fiziki tərbiyə şəxsiyyətin inkişaf və formalaşdırılmasında vacib faktor olması ilə mühüm dəyər qazanır. İnsanın fiziki cəhətdən düzgün inkişafına, iradəsinin möhkəmləndirilməsinə, zəruri hərəkət, bacarıq və vərdişlərinin təkmilləşdirilməsinə yönəldilmiş sosial-pedaqoji proses kimi diqqəti cəlb edir. Fiziki tərbiyə əqli, mənəvi, estetik, əmək tərbiyəsi ilə vəhdətdə həyata keçirilir. Ümumiyyətlə, tərbiyə prosesinin mahiyyət və məzmununda, hansı formasının tətbiqindən asılı olmayaraq fiziki tərbiyə bu və ya digər şəkildə təmsil olunur. Məhz bu səbəbdən də pedaqoji fikrin görkəmli nümayəndələri fəaliyyətlərinin bütün mərhələlərində fiziki tərbiyəni bir tərəf kimi əsas götürmüşlər. Maarifçi realistlər, pedaqoji fikrin görkəmli nümayəndələri S.M.Qənizadə, M.Mahmudbəyov, T.Bayraməlibəyov, E.Sultanov, R.Əfəndiyev, A.Şaiq, S.S.Axundov və onlarla başqaları öz fikir və mülahizələrində tərbiyəni bir bütöv olaraq götürmüş və fiziki tərbiyənin şəxsiyyət formalaşmasında müstəsna rolunu qeyd etmişlər. M.Şahtaxtlı da məktəbdarlıqla bağlı bütün məqalələrində bunu konseptual şəkildə qoymuş, bu və ya digər dərəcədə gərəkliyini göstərməyə çalışmışdır.

M.Şahtaxtlının ayrı-ayrı məqalələrində azərbaycanlıları yapon, rus, çin, ingilis, alman, fransız ərəb, fars mühitləri ilə müqayisəsi və müqayisəli təhlilləri problemin həllinə nə dərəcədə önəm verdiyini aşkarlayır. Əmək, fiziki tərbiyənin özündə bir dünyagörüş, estetik

mədəniyyət görməyə meyl göstərməsi məsələyə nə qədər köklü yanaşmasını təsdiqləyir. Cəmiyyətdə baş verən qeyri-etik münasibətlərlə əlaqədar M.Şahtaxtlının yazdığı məqalələr ("Rəddi-şər və fəsad", "Rəddi-şər və fəsadın ardı", "Ədəbiyyatda məslək", "Böyük təəssüf və rizaməndi", "Hər gün bir az", "Türk və tatar qövmünə müraciət", "Dərdimiz və dərmanımız" və s.) insanların dinə, islama və mədəniyyət aləminə, insanın insana münasibətlərini tənzimləmək sahəsində mühüm əhəmiyyət kəsb edir.

M.Şahtaxtlı Şərq və Avropa mədəniyyətinə, onun genetikasına bələd mütəfəkkirlərdən olmuşdur. O yazırdı ki, *"ruhi-küllisi olan nasionlar diridirlər və gələcəkdə də yaşayacaqlar. Ruhi-küllüsü olmayan millətlər isə ölüdürlər, meyitdirlər. Əgər şimdiki halda dilləri və özgələrdən ayrı qövmiyyətləri görünürsə, az vaxtda məhv olub gedəcək. Yəni nə nasionları qalacaq, nə dilləri, nə də dinləri. Çün əsrimiz də dinlər, dillər ilə qaimdir"*[8]**.** Göründüyü kimi,burada məsələ bir istiqamətdə milliliyə, etnosun təsəvvürlər sisteminə, dini, əxlaqi, estetik görüşlərinə əsaslanır.

O, qızların təhsil almasını müsəlman ailəsini cismani, ruhi cəhətdən əzən, onun fiziki və əqli təkmilləşməsinə mane olan ictimai bəladan xilas edəcək amil olduğunu təkidlə vurğulayırdı. "Культурное значение мусульманской женской школы" məqaləsində yazırdı: *"Qadınların qapalı həyat keçirməsi onları fiziki və əqli inkişafa lazım olan hərəkət, azadlıq və fəaliyyətdən qoyur, onları zəif, aciz, solğun və süst edir. Əlbəttə, dustaq həyatı keçirən və onların dünyasına açıq baxmaqdan məhrum olan qadınlar dünyaya spartaklar gətirməyəcəkdilər ki..."*[9]. M.Şahtaxtlı cəmiyyətin inkişafı, mədəni səviyyənin qalxması üçün məsələlərin konseptual həlli

---

[8]Şahtaxtlı M. Hər gün bir az. "Şərqi-Rus", 1904, 21 iyul, № 109

[9]Шахтахтинский М. Культурное значение мусульманской женской школы. – Антология педагогической мысли Азербайджанской ССР. Москва, "Pedaqoqika", 1989, str. 310

yollarını sosial sferaya təlqin etməyə çalışırdı. Burada məktəbin müstəsna rolu vurğulanırdı. *"Çox gözəl! Amma iş yapmağa, görməyə ixtiyarları, qüvvələri olan böyüklərimizdən yalnız boş fikir, quru söz gözləmiyiriz. İndi həzrəti-Adəm dövrü deyildir. Avvamlar, kəndlilər belə elmin, mərifətin qədrini, lüzumunu anlayıb, qanırlar. Amma bu gözəl səmtə getmək yolunu, qaydasını bilməyirlər. Buna görə elm yollarını bunlara sözlə deyil, işlə, öncüllük olmaqla bildirməlidirlər... Bu cəhətə böyüklərimizdən bizə quru söz deyil, ciddi ürək, qeyrət, iş lazımdır"*[10]. Bütün bunlar M.Şahtaxtlının bir maarifçi kimi baxışlar sistemini, fiziki və estetik tərbiyəyə verdiyi önəmi, apardığı mübarizənin məqsəd və məramını, mahiyyətini aydınlaşdırır.

Disertasiyada aşağıdakı *elmi nəticələrə* gəlinmişdir:

• XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda məktəb təhsilinin və pedaqoji fikrin yeni məzmunda və yeni istiqamətdə inkişafını ictimai-siyasi şərait, elmi-mədəni mühit formalaşdırmışdır.

• A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlıdan başlayan maarifçilik hərəkatı M.F.Axundovla, H.Zərdabi ilə inkişaf etdirilmiş, M.Şahtaxtlı və onun həmfikirləri tərəfindən yüksək səviyyəyə qaldırılmışdır.

• M.Şahtaxtlının əlifbanın dəyişdirilməsi sahəsində gördüyü işlər onun ictimai, mədəni fəaliyyətinin mühüm və əsaslı hissələrindən birini təşkil edir.

• M.Şahtaxtlının dərsliklərin yaradılması sahəsində gördüyü işlər Azərbaycanda yeni nəsil dərsliklərin və tədris resurslarının hazırlanmasında mühüm rol oynamış, bu sahədə ciddi tərəqqiyə səbəb olmuşdur. Onun əsərlərinin dünyanın bir çox kitabxanalarına səpələnməsi, müxtəlif kitabxanalarında mühafizə olunması bunu təsdiq edir.

• M.Şahtaxtlı Azərbaycan mətbuat tarixinə ictimai, siyasi, mədəni yönümlü "Şərqi-Rus qəzetin yaradıcısı kimi daxil olmuşdur. Qəzet

---

[10]Şahtaxtlı M. Dərdimiz, dərmanımız. "Şərqi-Rus", 1903, 13 aprel, № 6

onun maarifçi görüşlərini ifadə etmək üçün tribuna olmuşdur. O, maarifçilik fəaliyyətini və pedaqoji fikirlərini “Şərqi-Rus” qəzeti vasitəsilə geniş ictimaiyyətə çatdırılmışdır.

• M.Şahtaxtlının mütərəqqi pedaqoji fəaliyyəti onun maarifçilik görüşləri ilə sığ bağlı olub.

• M.Şahtaxtlının böyüyən nəslin təhsil-tərbiyəsi ilə bağlı nəzəri fikirləri XX əsrin əvvəllərində Azərbaycanda təhsil-tərbiyə nəzəriyyəsinin inkişafında mühüm rol oynamışdır.

• M.Şahtaxtlı əlifbanın dəyişdirilməsi sahəsindəki fəaliyyəti ilə Azərbaycanda əlifba islahatına güclü təkan vermişdir.

• Araşdırmalar göstərir ki, Məhəmməd ağa Şahtaxtlı “Qərblə Şərqi birləşdirən, həmişə ənənəvi şəkildə bir-birinə qarşı qoyulmuş bu mədəni-tarixi regionları yaxınlaşdırmağa və qovuşdurmağa çalışan açıq fikirli ziyalı” olmuşdur.

• M.Şahtaxtlının didaktik görüşləri, təlim və tərbiyənin məzmunu, prinsip və üsulları haqqında mülahizələri Azərbaycanda yeni pedaqoji nəzəriyyələrin formalaşdırılmasına güclü təsir göstərmişdir.

• M.Şahtaxtlı nəzəri irsi və praktik fəaliyyəti ilə Azərbaycanda maarifçilik hərəkatının geniş yayılmasında, əlifba islahatında, təhsil-tərbiyənin nəzəri və praktik problemlərinin həllində mühüm rol oynamışdır.

Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı *məqalə və tezislərin*də öz əksini tapmışdır.

1. Görkəmli maarifçi Məhəmmədağa Şahtaxtlı //–Bakı: Pedaqoji tədqiqatlar: axtarışlar, tapıntılar,–1996. № 2,– s.70-76
2. M.Şahtaxtlının fonetik şərq əlifbası. // – Bakı: “Elm və həyat” jurnalı,–1996. № 2,–s. 40-41
3. M.Şahtaxtlının pedaqoji fəaliyyəti //– Bakı: Pedaqoji tədqiqatlar: ADPU,–1998. № 2,–s.110-115
4. M.Şahtaxtlının pedaqoji irsindən //–Bakı: “Təhsil, mədəniyyət, incəsənət” jurnalı, №3,–2000.–s.79-83;

5. M.Şahtaxtlı Hacı Zeynalabdin Tağıyevin qız məktəbi haqqında //‒ Bakı: Əlyazmalar İnstitutunun 50 illiyinə həsr edilmiş orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri,‒ 2000.‒ s.23-27

6. M.Şahtaxtlının pedaqoji fəaliyyəti. //Naxçıvan qədim diyar (humanitar elmlər seriyası), Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş elmi konfransın materialları,‒Bakı: ‒2000. № 1, ‒s.189-193.

7. Məhəmməd ağa Şahtaxtlı. //‒Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, № 2,‒2018.‒s.111-113.

8. Pedaqoq, dilçi-poliqlot və naşir Məhəmməd ağa Şahtaxtlı //‒ Bakı: ARTİ-nin Elmi əsərləri,‒2018. № 6,‒s.262-267.

9. Великий просветитель Мухаммед-ага Шахтахтлинский и его педагогические взгляды //‒ Москва, «Образование. Наука. Научные кадры» №2,‒2018.‒s.184-189.

10. Место педагогический идей М.Ага Шахтахтлы в истории сосиальной мысли Азербайджана //‒Толййати, Азумут Научных Исследований: педагогика и психология. Том 9, № 2 (31),‒2020.‒ с.285-287.

11. M.Şahtaxtlının pedaqoji fəaliyyəti // N.Tusi adına ADPU-nun professor-müəllim heyətinin 60-cı Elmi konfransının materialları. I buraxılış,‒Bakı,‒2000,‒s.180-182.

12. Qloballaşma şəraitində tolerantlığın qorunulması // "İslam həmrəyliyi-2017: reallıqlar və perspektivlər" mövzusunda Respublika Elmi-metodik konfransının materialları, BDU,‒ Bakı:‒ 25-26 aprel,‒2017,‒s. 92-94.

13. Azərbaycanda təhsilin ilk milli yaradıcılarından biri – Məhəmməd Ağa Şahtaxtlı. Bakı Dövlət Universiteti, 4-5 aprel Beynəlxalq konfrans materialları.‒Bakı,‒2019,‒ s.94-97.

14. Педагогическое наследие Мухаммед Ага Шахтахтлы // Beynəlxalq konfrans materialları,‒London: United Kingdom,‒10-11 fevral,‒2020,‒s. 53-55.

15. Мухаммед Ага Шахтахтлы о становлении личности // Научные перспектива и образование и развитие творческого потенциала современной системы знаний, Международных научно-практических мероприятий Общества Науки и Творчества,–Россия: Казань,–06 октября,–2020,–с.87-91.

16. Выдающийся представитель Азербайджанской интеллигенции Мухаммед ага Шахтахтлы // European scientific discussions. Состоялась VI Международная научно-практическая конфуренция.–Рим: Италия,–25-27 апреля,–2021,–с. 296-300

17. Tələbə qrupu anlayışı və onun şəxsiyyətin formalaşmasına təsiri // İksad İnternational Congress on Social Scieneces-VI,–Turkiyə,–26-28 march,–2021,–s. 470-471

Dissertasiyanın müdafiəsi “31” mart 2022-ci il tarixdə saat $14^{\underline{00}}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68 AZ1000,

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “ 28 ” fevral 2022-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.02.2022

Kağızın formatı: 60x84

Həcm: 30963

Tiraj: 100